# Müstəqilliyin dayağı, qalibiyyətin rəmzi



*Azərbaycan gəncliyi hər zaman ölkənin inkişafında, onun beynəlxalq aləmdə layiqli yer tutmasında və tarixi ədalətin bərpasında önəmli rol oynayıb. 2 Fevral - Gənclər Günü məhz onların cəmiyyətdə artan rolunu, potensialını və qüdrətini vurğulayan mühüm bir tarixdir. 1997-ci ildə ümummilli lider Heydər Əliyevin imzaladığı Fərmanla təsis olunan bu gün təkcə təqvim deyil, Azərbaycanın gəncliyə olan diqqət və qayğısının rəmzi, gənclərin cəmiyyətin aparıcı qüvvəsi olmasının sübutudur. Azərbaycan bir daha öz strateji uzaqgörənliyini nümayiş etdirərək MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Gənclər Gününü təsis edən dövlət olub. Qısa zaman sonra, 1998-ci ildə gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının tövsiyəsi ilə bu təşəbbüs qlobal səviyyəyə yüksəlib və 1999-cu ildə BMT-nin Baş Məclisi 12 avqustu Beynəlxalq Gənclər Günü elan edib.*

Müstəqillik dövründə doğulan gənclər Azərbaycanın bütün çətinliklərdən necə çıxış yolu tapdığını görüb və onun ərazi bütövlüyü uğrunda mübarizədə ön cəbhədə dayanıblar. 44 günlük Vətən müharibəsində Azərbaycan gəncliyi tarix yazdı, öz iradəsi, vətənpərvərliyi və fədakarlığı ilə xalqın gücünü dünyaya nümayiş etdirdi. İndi isə qalib ölkənin gəncləri olaraq, onlar daha böyük zirvələrə doğru irəliləyirlər. Elm, innovasiya, idman, mədəniyyət və iqtisadiyyat sahələrində qazandıqları uğurlar Azərbaycan gənclərinin intellektual və yaradıcı potensialının bariz nümunəsidir. Dövlət bu potensialın reallığa çevrilməsi üçün hər cür şərait yaradır. Prezident İlham Əliyevin gənclərlə bağlı siyasəti onların inkişafını sürətləndirir, yeni imkanlar açır və daha böyük hədəflərə çatmalarına dəstək verir.

2022-ci il fevralın 2-də Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumu keçirilib. Bu, təkcə bir tədbir deyil, Azərbaycanın gənclər siyasətinin keçdiyi şərəfli yolun, dövlətin gənclərə verdiyi dəyərin və onların cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinin təntənəsidir. Bu forumun 25 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı isə dövlətin gənclərə verdiyi önəmin ən bariz nümunəsidir. Gülüstan sarayında təşkil olunan Gənclər Forumunda gənc sahibkarlar, Dövlət proqramlarının iştirakçıları, keçmiş məcburi köçkün və şəhid ailələrinin gənc üzvləri, Vətən müharibəsi iştirakçıları, təhsildə və sosial inklüziv fəaliyyətdə fərqlənənlər iştirak ediblər. Forumda çıxış edən ölkə başçımız indiki gənclər üçün imkanların geniş olduğunu və onların bu imkanlardan istifadə etməli olduqlarını diqqətə çatdırdı. "Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik".

Prezident İlham Əliyevin vurğuladığı kimi, biz sabit və özünə güvənən bir ölkədə yaşayırıq. Bu sabitlik Azərbaycan dövlətinin uzun illər apardığı uğurlu siyasətin nəticəsidir. Biz gənclər bu şəraitdə yalnız imkanlardan faydalanmaqla kifayətlənməməli, həm də məsuliyyət hiss etməliyik. Çünki ölkənin gələcəyi, onun beynəlxalq arenada möhkəmlənməsi, iqtisadi, sosial və hərbi gücünün artması bilavasitə bizlərin fəallığından və dövlətimiz üçün gördüyümüz işlərdən asılıdır.

Bu siyasət düşünülmüş strategiyanın tərkib hissəsidir. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin Birinci Forumu da məhz bu strategiyanın başlanğıcı oldu. Həmin forumda gənclər qarşısında mühüm tarixi vəzifələr müəyyən edildi, onların milli ruhda yetişməsi, dövlətə bağlılıq hissinin güclənməsi üçün zəruri ideoloji və siyasi zəmin formalaşdırıldı. Bu gün Azərbaycan gəncliyi həmin strategiyanın bəhrəsini yaşayır. 2003-cü ildən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət daha da təkmilləşdi, ardıcıl və sistemli şəkildə inkişaf etdirildi. 2007-ci ilin "Gənclər ili" elan olunması, Gənclər Fondunun yaradılması, Prezident Mükafatının təsis edilməsi və gənclər üçün müxtəlif inkişaf proqramlarının həyata keçirilməsi onların potensialını maksimum reallaşdırmaq üçün atılan mühüm addımlardır. Azərbaycan gənci artıq təkcə ölkə daxilində deyil, beynəlxalq arenada da öz sözünü deyir, idman, elm, mədəniyyət və innovasiya sahələrində parlaq nailiyyətlər qazanır. Bu gün gənclər siyasəti eyni zamanda gələcəyə aparan bir yoldur. Qarşıda bizi yeni zirvələr gözləyir - texnologiya, elm, diplomatiya və digər sahələrdə Azərbaycanın daha da güclənməsi məhz bu günün gənclərinin üzərinə düşən məsuliyyətdir.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**